



# İMİŞLİDƏ QURUCULUQ İŞLƏRİ

İmişli rayonunda insanlar qış qayğıları ilə yaşayırlar. 2015-ci ilin ilk günlərində bütün diqqət rayonda aparılan tikinti-abadlıq işlərinin davam etdirilməsinə yönəldilmişdir. Rayonun əlaqədar təşkilatları insanların sosial şəraitinin yaxşılaşdırılmasına böyük diqqət yetirirlər.

**Rayon İcra Hakimiyyətinin memarlıq və tikinti şöbəsinin müdiri Emil Fərzəliyev** bizimlə söhbətdə bildirdi ki, son illər ərzində rayonun yaşayış məntəqələrinin siması xeyli dəyişmişdir. Şəhər getdikcə böyümüş, əhali hər cür sosial xidmətlərlə əhatə olunmuş, onların arzu və istəklərinə müvafiq olaraq yeni xidmət və istehsal obyektləri işə salınmış, adamların məşğulluğu təmin edilmişdir. Son vaxtlar rayon mərkəzindəki Heydər Əliyev parkında abadlıq və yenidənqurma işləri davam etdirilmiş, parkın ərazisindəki ictimai və inzibati binalar əsaslı surətdə yenidən qurulmuş və fəvvarələr qoyulmuş, yaşıllıqlar salınmış, şəhərdaxili yollara asfalt-beton örtük qoyulmuş, qum-çınqıl döşənmiş, səki və meydançalara üzlük plitələr düzülmüş, inzibati və yaşayış binalarının dam örtükləri dəyişdirilmişdir. Heydər Əliyev prospektində, küçələrdə asfaltlaşdırma və abadlaşdırma işləri görülmüşdür. Ötən il Ölcələr, Cəfərli, kəndlərində müasir tipli orta məktəb binaları, Məzrəli kəndində 40 yerlik uşaq bağçası tikilib istifadəyə verilmişdir. Hazırda Qarabağ əlilləri üçün 54 mənzilli yaşayış binasının, Ərazi Kənd Təsərrüfatı İdarəsi binasının inşaası davam etdirilir, şəhərin mərkəzi küçələrində yenidənqurma və abadlıq işləri görülür, istismara yararsız binalar sökülərək onların yerində müasir tələblərə cavab verən obyektlər tikilir. Su və kanalizasiya xətlərinin yenidən qurulması davam etdirilir.

E.Fərzəliyev vurğuladı ki, yeni yolların çəkilişinə və istifadədə olan yolların təmirinə, infrastrukturun genişləndirilməsinə göstərilən dövlət qayğısı hər bir guşədə diqqəti cəlb edir. İlboyu yolların üstündə olan körpülərə də yüksək səviyyədə xidmət göstərilmiş, nəqliyyatın və əhalinin bu körpülərdən rahat istifadəsi və hərəkətin təhlükəsizliyindən ötrü tam təminat yaradılmışdır. Yolçəkənlər hazırda şəhərin mərkəzindəki yolların təmiri ilə də məşğuldurlar, su və kanalizasiya sisteminin yenidən qurulması ilə əlaqədar olaraq küçələrin və yolların asfaltlaşdırılmasında yaxından iştirak edirlər. Müasir tipli asfalt-beton zavodunun istehsal etdiyi materiallardan geniş istifadə olunur. Qum-çınqıl materialları əsasən Bəhpramtəpədən gətirilir. İşlərin gedişində ən müasir texnikalardan istifadə edilir.

2015-ci ildə də sosial-iqtisadi problemlərin ardıcıllıqla həll olunması nəzərdə tutulmuşdur. Belə ki, yol çəkilişi sahəsində həyata keçiriləcək tədbirlər daha da genişləndiriləcək, yollara xidmətin keyfiyyəti yaxşılaşdırılacaqdır.

Bu sırada tikinti-abadlıq işçilərinin də məsuliyyəti qat-qat artır, onlardan daha yüksək işgüzarlıq tələb olunur. Ona görə də hər bir tədbirə xüsusi əhəmiyyət verilir, məsuliyyətlə yanaşılır.

**Sabir MUSTAFAYEV,**
**"Respublika".**